“Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir”.

Heydər ƏLİYEV



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 7 yanvar 2015-ci il №1 (1917) | Qiyməti 25 qəpik

## Ali Baş Komandan İlham ƏLİYEV:

# “Bizim siyasi gücümüz, iqtisadi potensialımız, qüdrətli ordumuz var”

### Müdafiə Nazirliyinin rəhbərliyi cəbhə bölgəsində yerləşən hərbi hissələrdə olub



*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibəti ilə Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov cəbhəboyu rayonlarda yerləşən birlik, birləşmə və hərbi hissələrdə olublar.*

Müdafiə Nazirliyinin rəhbərliyi ön xətdə yerləşən hərbi hissələrdə düşmənlə üz-üzə səngərlərdə döyüş növbəsi çəkən şəxsi heyətlə görüşüb, onların sosial məişət şəraiti ilə maraqlanıb, hərbi qulluqçuları bayramlar münasibətilə təbrik edərək onlara hədiyyələr təqdim ediblər.

Səfər zamanı Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin göstərişinə əsasən, yeni tikilmiş və müasir avadanlıqlarla tam təchiz edilmiş hərbi hissələrin açılış mərasimləri keçirilib.

Müdafiə Nazirliyinin rəhbərliyi yeni istifadəyə verilmiş hərbi hissələrin qərargahı, əsgər yataqxanaları, tədris kompleksləri, döyüş texnikaları üçün saxlanclar, qarovul şəhərciyi, sıra meydanı, yeməkxanalar, tibb məntəqəsi, qazanxana-camaşırxana-hamamxana kompleksi və digər obyektlərlə tanış olublar.

Müdafiə naziri şəxsi heyət qarşısında çıxış edərək Ali Baş Komandanın ordu quruculuğuna göstərdiyi yüksək diqqət və qayğının nəticəsi olaraq son vaxtlar döyüş və mənəvi-psixoloji hazırlığın daha da gücləndirilməsi, şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması, maddi-texniki bazanın möhkəmləndirilməsi məqsədilə görülən işləri diqqətə çatdırıb.

(Ardı 2-ci səhifədə)

## “Ermənistan bütün səylərini ona qoyub ki, sülh danışıqları aparılmasın, yaxud da ki, imitasiya naminə aparılsın”

*Əfsuslar olsun ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi 2014-cü ildə də öz həllini tapmamışdır. Buna səbəb Ermənistanda kriminal, qanlı diktatura rejiminin mövcudluğudur. Ermənistan sülh istəmir. Bütün səylərini ona qoyub ki, sülh danışıqları aparılmasın, yaxud da ki, imitasiya naminə aparılsın.*

Bu fikirləri Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində bildirib.

Azərbaycan Prezidenti deyib: "2014-cü ildə vasitəçilər fəallıq göstərmişdilər, bunu biz qeyd etməliyik. Rusiya, Amerika, Fransa - bu ölkələrin rəhbərləri ardıcıllıqla avqust, sentyabr, oktyabr aylarında üçtərəfli görüşlər keçirmişlər. Mən bunu yüksək qiymətləndirirəm və bu ölkələrə minnətdaram. Ancaq Ermənistan bu görüşlərdə özünü səmimi aparmamışdır. Bundan əlavə, Paris görüşündən iki həftə keçməmiş işğal edilmiş torpaqlarda genişmiqyaslı hərbi təlimlərə başlamışdır. Bu təlimlərin bir məqsədi var idi - Azərbaycanı provokasiyaya çəkmək, təxribat törətmək və danışıqlar prosesinə zərbə vurmaq. Eyni hadisəni biz yay aylarında görmüşdük. O vaxt da erməni təxribatçı qrupları Azərbaycan mövqelərinə hücum çəkmişdilər. Ancaq Azərbaycan Ordusu onlara layiqli cavab vermişdir, 50-dən çox işğalçı məhv edilmişdir. 2014-cü ilin sonlarında da buna oxşar hadisə baş vermişdir. Yenə də Azərbaycan Ordusu düşmənə layiqli cavab verərək onu yerinə oturtdu".

"İşğalçı dövlət bilməlidir ki, qüdrətli Azərbaycan Ordusu istənilən vaxtda öz ərazi bütövlüyünü bərpa edə bilər", - deyə dövlətimizin başçısı bildirib: "Sadəcə olaraq biz hələ ümid edirik ki, danışıqlar prosesi müsbət nəticə verə bilər və bu ümidi gücləndirən amillər kifayət qədər çoxdur. Bizim siyasi gücümüz, iqtisadi potensialımız, qüdrətli ordumuz var".

Prezident İlham Əliyev gələn il ordu quruculuğuna, ordumuzun inkişafına 5 milyard dollara yaxın vəsait ayrılacağını, bunun da yoxsul, dilənçi Ermənistanın ümumi büdcəsindən iki dəfədən çox olduğunu vurğulayıb.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında həllini tapa biləcəyini diqqətə çatdıran Prezident deyib ki, BMT Təhlükəsizlik Şurasının qətnamələri icra edilməlidir. “İşğalçı qüvvələr Azərbaycanın işğal olunmuş torpaqlarından çıxarılmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Bu, əsas prinsiplərdir. Biz bu prinsiplər əsasında istənilən müqavilənin imzalanmasına hazırıq”.

**AzərTAc**

## "20 Yanvar faciəsinin iyirmi beşinci ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı" təsdiq edilib

*Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin Sərəncamı ilə "20 Yanvar faciəsinin iyirmi beşinci ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı" təsdiq edilib.*

Sənəddə respublikanın şəhər və rayonlarında, o cümlədən idarə və təşkilatlarda 20 Yanvar hadisələri ilə bağlı toplantı, konfrans və mühazirələrin təşkili, mədəniyyət ocaqlarında faciəyə həsr olunmuş tamaşaların göstərilməsi, bədii və sənədli filmlərin nümayiş etdirilməsi, bu tədbirlərin kütləvi informasiya vasitələrində geniş işıqlandırılması, dünya ictimaiyyətinin diqqətini faciəyə yönəltmək məqsədi ilə Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri və diaspor qurumları tərəfindən müvafiq tədbirlərin keçirilməsi, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar faciəsi barədə materialların verilməsi nəzərdə tutulub.

Tədbirlər planına əsasən, 20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə humanitar yardım veriləcək, Şəhidlər xiyabanı ərazisində lazımi işlər aparılacaq, Azərbaycanda təmsil olunan əsas dini konfessiya və qurumlar tərəfindən faciə qurbanlarının xatirəsinə dini mərasimlər təşkil ediləcək.

Bundan başqa, sənəddə paytaxt ictimaiyyətinin yanvarın 20-də Şəhidlər xiyabanına ziyarətinin təşkili, saat 12.00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, gəmilər, avtomobillər və qatarlar vasitəsilə səs siqnallarının verilməsi, gün ərzində Şəhidlər xiyabanında matəm musiqisinin səsləndirilməsi, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində hüzn əlaməti olaraq dövlət bayraqlarının endirilməsi və digər tədbirlər nəzərdə tutulub.

**AzərTAc**

## Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Azərbaycan Respublikası Milli Məclisinin Müraciəti

Əziz soydaşlarımız, dəyərli həmvətənlərimiz!

Azərbaycanın yeni tarixinə xalqımızın milli mənəvi bütövlük arzusunun təcəssümü kimi daxil olmuş 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü bəzən tarixin gedişi, bəzən də taleyin hökmü ilə dünyanın dörd bir yanına səpələnmiş soydaşlarımızın dil, əqidə və əməl birliyinin yaradılmasını ümummilli vəzifə kimi irəli sürür. Sürətlə dəyişən dünyada xalqımızın bütün gücünü bir yerə toplamaq əzmindən güc alan həmrəylik günü bir-birindən ayrı düşən soydaşlarımızın milli mənlik şüuru əsasında sıx birləşməsi prosesinin başlanğıcını qoymuşdur.

Dövlət müstəqilliyimizlə yaşıd olan bu proses xalqımızın tarixi müqəddəratında köklü dəyişikliklərin baş verdiyi bir dövrdə vüsət almışdır. Müstəqilliyinin ilk illərində ağır sınaqlara çəkilən, gərgin və çıxılmaz vəziyyətlərə düşən Azərbaycan bir əsrdə ikinci dəfə qismətinə düşən istiqlaliyyətini ulu öndər Heydər Əliyevin müstəsna xidmətləri sayəsində qoruyub saxlaya bildi. Azərbaycan uçurumun bir addımlığından geri dönərək onu hədələyən bütün təhlükələrə sinə gərdi, cəmiyyət həyatında sabitliyə nail olaraq ardıcıl inkişaf yoluna çıxdı.

Heydər Əliyev yolunu yaradıcı surətdə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası bu gün Cənubi Qafqaz bölgəsinin lider dövlətinə və bütün dünya azərbaycanlılarının qürur yerinə çevrilmişdir. On ildən artıqdır ki, Azərbaycan dünyanın ən dinamik inkişaf edən ölkələri sırasında yerini inamla qoruyub saxlayır.

Azərbaycançılıq amalının şüurlara və qəlblərə hakim kəsilməsinə yönəlmiş uzaqgörən dövlət siyasəti həyata keçirilir, xarici ölkələrdəki Azərbaycan icmaları ilə əlaqələr gücləndirilir. Dünya azərbaycanlılarının qurultaylarının keçirilməsi, xaricdə yaşayan həmvətənlərimizlə iş üzrə ayrıca dövlət qurumunun fəaliyyət göstərməsi diaspor təşkilatları ilə münasibətlərin dərinləşməsinə kömək göstərir.

Bütün bunlar həm sayına, həm də intellektual potensialına görə dünyanın böyük millətləri ilə bir sırada dayanan xalqımızın mütəşəkkil qüvvə kimi formalaşmasına yol açır. Dünyanın müxtəlif ölkələrində məskən salmış on milyonlarca soydaşımız milli birliyə və həmrəyliyə nail olmağın zəruriliyini indi daha aydın dərk edir. Onlar yaxşı başa düşürlər ki, yalnız öz gücünü bir yerə toplayıb potensialını üzə çıxarmağı bacaran xalqlar etnik-siyasi hüquqlarını və milli mənafelərini həyata keçirmək imkanlarını qoruya və artıra bilirlər. Bəşər sivilizasiyasının inkişafına dəyərli töhfələr vermiş Azərbaycan xalqının yeni minillikdə davamlı yüksəlişinin yolu on milyonlarca soydaşımızın və həmvətənimizin mütəşəkkil qüvvə kimi formalaşmasından keçir.

Azərbaycan Respublikası bütün dünya azərbaycanlılarının ata-baba yurdu olduğuna görə Avropada, Asiyada, Amerikada və digər qitələrdə yaşayan soydaşlarımızın övladlıq borcu Vətənimizin taleyüklü problemlərinin həllinə elliklə kömək göstərməkdir. Qarabağ düyününün açılması, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi, qaçqın və köçkün soydaşlarımızın doğma yurdlarına qaytarılması ümummilli vəzifələrdən biridir. Dövlətimizin inkişafı yolunda mövcud olan bu maneənin aradan qaldırılmasına elliklə kömək göstərmək Yer kürəsinin hansı guşəsində yaşayıb-işləməsindən asılı olmayaraq bütün azərbaycanlıların Vətən qarşısında övladlıq borcudur.

Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması sahəsində görülәsi işlər çoxdur. Soydaşlarımızın bir vəzifəsi də yaşadıqları ölkələrin ictimai-siyasi həyatına inteqrasiya etməklə bərabər, xalqımızın qədim adət-ənənələrini, dilini, mədəniyyətini yaşatmaqdan, bir-biri ilə və tarixi Vətənlə əlaqələrini möhkəmləndirməkdən ibarətdir. Milli hüquqlarımızın qorunması üçün Azərbaycan diasporunun möhkəmləndirilməsi, Azərbaycan icmalarının gücləndirilməsi də mühüm vəzifələr sırasındadır.

Əziz soydaşlarımız, dəyərli həmvətənlərimiz!

Sizi ümummilli məqsədlərimizin gerçəkləşməsi, xalqımızın mənafelərinin qorunması naminə birliyə çağırırıq. Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə hamınızı ürəkdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, ailə səadəti, doğma Azərbaycanımıza işıqlı gələcək arzulayırıq!

## Həqiqi hərbi xidmətə çağırış başlayıb

*Azərbaycan-Prezidentinin-müvafiq-Sərəncamına uyğun- olaraq,-2015-ci-il-yanvarın-1-dən-ölkəmizdə-növbəti-həqiqi-hərbi-xidmətə-çağırış-başlayıb.*

AzərTAc-xəbər-verir-ki,-bir-ay-davam-edəcək-çağırış prosesində-minlərlə-gənc-hərbin-sirlərinə-dərindən-yiyələnmək,-Vətənin-keşiyində-əzmlə-dayanmaq-kimi-şərəfli-borcunu-yerinə-yetirmək-üçün-əsgəri-xidmətə-yollanacaqdır.

Sərəncama-əsasən,-1997-ci-ildə-doğulmuş-və-çağırış gününədək-(həmin-gün-də-daxil-olmaqla)-18-yaşı-tamam olmuş,-habelə-1980-1996-cı-illərdə-doğulmuş,-yaşı-35-dək-olan,-Azərbaycan-Respublikasının-Silahlı-Qüvvələrində-və-Azərbaycan-Respublikasının-qanunvericiliyinə uyğun- olaraq- yaradılmış- başqa- silahlı- birləşmələrdə müddətli-həqiqi-hərbi-xidmət-keçməmiş,-müddətli-həqiqi-hərbi-xidmətə-çağırışdan-möhlət-hüququ-olmayan-və ya-müddətli-həqiqi-hərbi-xidmətə-çağırışdan-azad-edilməmiş-Azərbaycan-Respublikasının-vətəndaşları-2015-ci-il-yanvarın-1-dən-30-dək-müddətli-həqiqi-hərbi-xidmətə-çağırılırlar.

Sərəncama-uyğun-olaraq,-"Hərbi-vəzifə-və-hərbi-xidmət- haqqında"- Azərbaycan- Respublikası- Qanununun 38.1.1-ci-maddəsində-nəzərdə-tutulmuş-xidmət-müddətini-keçmiş-müddətli-həqiqi-hərbi-xidmət-hərbi-qulluqçuları-2015-ci-il-yanvarın-1-dən-30-dək-ehtiyata-buraxılacaqlar.

Qeyd- edək- ki,- Prezident- İlham- Əliyev- dekabrın- 3-də Azərbaycan- Respublikası- vətəndaşlarının- 2015-ci- il- yanvarın-1-dən-30-dək-müddətli-həqiqi-hərbi-xidmətə-çağırılması-və-müddətli-həqiqi-hərbi-xidmət-hərbi-qulluqçularının-ehtiyata-buraxılması-haqqında-Sərəncam-imzalayıb.

# "Hərbi qulluqçuların ən müasir səviyyədə müalicəsinə fikir verilməlidir"

## Müdafiə naziri və nazirliyin rəhbər heyəti bayram günü Baş Klinik Hospitalda olub



***Dekabrın 31-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin rəhbər heyəti Silahlı Qüvvələrin Baş Klinik Hospitalında olub.***

Müdafiə naziri başda olmaqla nazirliyin rəhbər nümayəndələri öncə ümummilli liderimiz Heydər Əliyevin hospitalın həyətində ucaldılmış abidəsini ziyarət ediblər. Abidə önünə gül dəstələri düzərək böyük öndərin xatirəsinə hörmət və ehtiram hisslərini bildiriblər.

Sonra müasir tibb elminin nailiyyətləri əsasında yaradılmış ikinci müalicə korpusuna daxil olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov, nazirin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov və nazir müavinləri müalicə bölmələrinə baş çəkərək burada hərbi qulluqçularla görüşüblər. Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəisi general-mayor Natiq Əliyev mövcud müalicə şəraitindən söhbət açaraq qeyd edib ki, hazırda Azərbaycanın dövlət rəhbərliyi tərəfindən ordu quruculuğuna göstərilən yüksək diqqət və qayğının nəticəsi olaraq hərbi səhiyyəmizin maddi-texniki təminatı yetərincə yaxşılaşıb. "Bütün növ diaqnostik müayinələr dünya standartlarına cavab verən müasir tibbi-texniki avadanlıqların köməyi ilə aparılır ki, bu da xəstəliklərin dəqiq müayinəsini aparmağa imkan verir. Bundan əlavə, zabit və əsgərlərin müayinə və müalicəsi ilə peşəkar tibb heyəti məşğul olur", - deyə idarə rəisi bildirib.



Müxtəlif müalicə bölmələrində hərbi qulluqçularla görüşən Müdafiə naziri onları Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edib, hər bir xəstəyə tezliklə sağalıb doğma kollektivə qayıtmalarını arzulayıb.

Tovuz rayonundan ordu sıralarına çağırılmış "N" hərbi hissəsinin əsgəri Əfqan Səfərov yaradılmış hərtərəfli müalicə şəraitinə görə onunla eyni palatada müalicə olunan əsgər yoldaşları adından ordu rəhbərliyinə minnətdarlığını bildirib. Hərbi qulluqçu qeyd edib ki, hospitalda müalicə olunduqları qısa vaxtda sağlamlıqları bərpa olunub və artıq doğma hərbi hissəyə qayıdaraq xidmətlərini davam etdirmək arzusundadırlar.



Həmçinin intensiv müalicə kursu almış bütün əsgərlər müdafiənin ön xəttində xidmətə göndərilmələrini və torpaqlarımızı işğaldan azad etmək üçün istənilən zaman haqq savaşına atılmağa hazır olduqlarını ifadə ediblər. Müdafiə naziri əsgərlərlə səmimi söhbət edərək hər kəsin qayğıları, müalicə vəziyyəti ilə dərindən maraqlanıb.

General-polkovnik Zakir Həsənov hospitalın rəhbər tibb heyətinin nümayəndələrinə tövsiyə edib ki, hər bir əsgərin, zabitin müalicəsi yüksək səviyyədə aparılmalı, hər kəsə diqqət göstərilməlidir. "Müasir dövrümüzdə Azərbaycanın dövlət rəhbərliyinin, şəxsən möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyevin yüksək diqqət və qayğısı ordu quruculuğunda, həmçinin hərbi səhiyyəmizin müasir tibb elminin nailiyyətləri baxımından inkişafında da özünü aydın göstərir. Bu gün ən mürəkkəb ürək əməliyyatları da hospitalımızın peşəkar həkimləri tərəfindən uğurla həyata keçirilir. Hərbi səhiyyənin maddi-texniki bazasının möhkəmləndirilməsi yalnız bir məqsədə - hərbi qulluqçuların sağlamlıqlarının etibarlı qorunmasına yönəldilib. Biz çalışırıq ki, hospitallarımızda müalicə olunan əsgər və zabitlərin hansısa bir problemi yaranmasın". Nazir tövsiyə və tapşırıqlarında bildirib ki, hospitala müraciət edən hər bir mülki vətəndaşa, başqa qoşun növlərinin hərbi qulluqçularına da səmimi və qayğıkeş münasibət olmalıdır.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

## Ali Baş Komandan İlham ƏLİYEV:

# "Bizim siyasi gücümüz, iqtisadi potensialımız, qüdrətli ordumuz var"



**(Əvvəli 1-ci səhifədə)**

2014-cü ilin Silahlı Qüvvələr üçün uğurlu olduğunu qeyd edən nazir düşmənin bütün təxribatlarının qarşısının müvəffəqiyyətlə alındığını, cəbhədə tam üstünlüyün ordumuzun tərəfində, düşmənin isə panika və iflic vəziyyətində olduğunu, ermənilərin əsgər və zabitlərinin xidmətdən boyun qaçırdıqlarını qeyd edib.

Ali Baş Komandan və Azərbaycan xalqının Silahlı Qüvvələr qarşısında tələbinin birmənalı olaraq işğal olunmuş torpaqlarımızın düşməndən azad edilməsi olduğunu xatırladan Müdafiə naziri 2015-ci ildə bu vəzifənin yerinə yetirilməsi üçün ordunun yüksək döyüş hazırlığı vəziyyətində olmasının zəruriliyini vurğulayıb.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibəti ilə şəxsi heyəti təbrik edən Müdafiə naziri gələcək xidmətlərində onlara uğurlar diləyib.

Sonra cəbhə bölgəsində yerləşən hərbi hissədə şəxsi heyətin daimi istiliklə təmin olunması məqsədilə çəkilən təbii qaz xəttinə mavi yanacağın verilməsinin rəmzi olan məşəl alovlandırılıb və şəxsi heyətin iştirakı ilə uzun ömürlülüyün rəmzi olan çinar ağacı əkilib.

Müdafiə Nazirliyinin rəhbərliyi hərbi qulluqçularla birlikdə nahar edib. Nazir yeni işə başlayan mülki işçilərlə görüşüb, onları dinləyib və müvafiq tapşırıqlarını verib.

Səfər zamanı Müdafiə Nazirliyinin rəhbərliyi cəbhə bölgəsində yerləşən hərbi hospitala baş çəkib, tibbi personalla görüşüb və müalicə olunan hərbi qulluqçulara bayram sovqatları təqdim edib.

Müdafiə naziri yüksək döyüş hazırlığının, şəxsi heyətin vətənpərvərlik ruhunun, əzmkarlığının, nizam-intizamın möhkəmləndirilməsində və qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsində əldə etdikləri nailiyyətlərə görə hərbi qulluqçulara təşəkkür edib, onları fəxri fərmanla mükafatlandırıb, xidmətdə fərqlənən bir qrup hərbi qulluqçuya isə qısamüddətli məzuniyyət elan edib.



Eyni zamanda Müdafiə Nazirliyinin rəhbərliyi cəbhə bölgəsində yeni inşa edilən təlim mərkəzində və hərbi hissənin şəhərciyində olub, tikinti-quruculuq işləri ilə bağlı müvafiq tapşırıqlarını verib.

Bildirilib ki, 2015-ci ildə müasir standartlara uyğun, tam təmin edilmiş 10-a yaxın hərbi şəhərciyin istifadəyə verilməsi nəzərdə tutulub.

Müdafiə nazirinin göstərişinə əsasən, bayram günlərində Müdafiə nazirinin müavinləri və qoşun növlərinin komandanları da birlik, birləşmə və hərbi hissələrdə olub, şəxsi heyəti təbrik ediblər.

Cəbhə bölgəsində yerləşən hərbi hissələrin şəxsi heyəti Müdafiə Nazirliyinin rəhbərliyini əmin edib ki, onlar göstərilən diqqət və qayğıdan, xidmət üçün yaradılan ən müasir şəraitdən ruhlanaraq bundan sonra da Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin hər bir əmrini yerinə yetirməyə hər an hazırdırlar.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

Ermənistanın elektron kütləvi informasiya vasitələrinin guya Azərbaycan Silahlı Qüvvələrinin cəbhədə təxribat törətməsi və bunun nəticəsində itki verməsi barədə yaydığı məlumatlar yalan və uydurmadır.

Təchizatsız, ağır və dözülməz şəraitdə, soyuq səngərdə qorxu və səksəkə içində olan erməni əsgərindən tutmuş hərbi rəhbərliyinə kimi hamının gözünə hər yerdə Azərbaycan "diversantı" görünür. Erməni silahlı qruplaşmalarının daxili çəkişmələri və aralarındakı ziddiyyətlər nəticəsində bir-birini güllələbaran etdikdən sonra hər dəfə Azərbaycan tərəfini günahkar çıxarması artıq adət halını alıb.

Müdafiə Nazirliyi bildirir ki, Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyəti Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramını qeyd etməklə bərabər Azərbaycan torpaqlarının işğaldan azad olunmasına ciddi hazırlaşır.

* * *

Yanvarın 3-də Ermənistan Silahlı Qüvvələrinin bölmələri iri çaplı silahlar, tank əleyhinə qumbaraatanlar, 60 və 82 millimetrlik minaatanlardan istifadə etməklə Silahlı Qüvvələrimizin mövqelərini və cəbhəboyu yaşayış məntəqələrini intensiv atəşə tutublar.

Müdafiə Nazirliyi birmənalı şəkildə bəyan edir ki, kəndlərin və dinc əhalinin atəşə məruz qalması Azərbaycan tərəfini qəti surətdə bütün hərbi imkanlardan istifadə etməklə adekvat və sərt tədbirlər görməyə məcbur edir, bu, Ermənistan Silahlı Qüvvələrinin daha ağır və sarsıdıcı itkilər verməsinə səbəb olacaq, məsuliyyət isə tamamilə səbatsız erməni rəhbərliyinin üzərinə düşəcəkdir.

Azərbaycan Silahlı Qüvvələri işğal olunmuş torpaqlarımızın düşməndən azad olunmasına tam hazırdır və bu haqq savaşında qalib gələcəyimizə əminik.

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edəcəklər

Yanvarın 5-dən 9-dək Oberammerqau şəhərində (Almaniya) NATO qərargah zabitləri üçün tanışlıq kursu keçiriləcək.

Tədbirdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri iştirak edəcəklər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***6 yanvar 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 72 dəfə pozulub.

Erməni silahlı bölmələri Ermənistan Respublikasının İcevan rayonunun Berkaber, Noyemberyan rayonunun Dovex kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı və Kəmərli kəndlərində, Berd rayonunun ərazisindəki adsız yüksəkliklərdə, Çinari və Ayqepar kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi, Ağbulaq, Əlibəyli və Hacıalılı kəndlərində yerləşən mövqelərimizi atəşə tutublar.

Tərtər rayonunun Göyarx, Goranboy rayonunun Tapqaraqoyunlu, Ağdam rayonunun Yusifcanlı, Mərzili, Kəngərli, Şuraabad, Şıxlar, Novruzlu, Qaraqaşlı, Cəvahirli, Sarıcalı, Baş Qərvənd, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

# Beynəlxalq Fond D.Əsgərovun və Ş.Quliyevin azad edilməsinə kömək göstərməyə çağırır

***2015-ci il yanvarın 5-də Beynəlxalq Qara Dəniz və Xəzər Dənizi Tərəfdaşlıq və Əməkdaşlıq Fondu işğal olunmuş Kəlbəcər rayonunda əzizlərinin məzarlarını ziyarət etməyi qərara almış D.Əsgərovun və Ş.Quliyevin 2014-cü ilin iyulunda saxlanılması və mühakimə edilməsi ilə əlaqədar bəyanat yayıb:***

"Beynəlxalq Fond xatırladır ki, işğal olunmuş Kəlbəcər rayonunda əzizlərinin məzarlarını ziyarət etmək qərarına gəlmiş üç azərbaycanlı vətəndaş 2014-cü ilin iyulunda Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülüb. Müxtəlif işgəncələrə məruz qalmış bu vətəndaşlardan biri - Həsən Həsənov həlak olub, digər iki nəfər - Dilqəm Əsgərov və Şahbaz Quliyev isə Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində qanunsuz məhkəməyə cəlb ediliblər.

Beynəlxalq Fond həmçinin xatırladır ki, BMT-nin Təhlükəsizlik Şurası 1993-cü ildə qəbul etdiyi 822-ci qətnaməsində işğal olunmuş Kəlbəcər rayonunun Azərbaycan ərazisi olduğunu təsdiqləyib və bütün işğalçı qüvvələrin bu və işğal olunmuş digər ərazilərdən çıxarılmasını tələb edib. Bu qətnamədə BMT-nin Təhlükəsizlik Şurası bütün Azərbaycan əhalisinə qarşı etnik təmizləmə siyasəti ilə əlaqədar regionda, xüsusən də Kəlbəcərdə yaranmış fövqəladə humanitar vəziyyətdən ciddi narahatlığını ifadə edib.

İşğal günündən 20 ildən artıq keçsə də, Ermənistan BMT Təhlükəsizlik Şurasının bu, habelə üç digər qətnaməsinə məhəl qoymamaqda davam edir və onun silahlı qüvvələri hələ də Azərbaycan, o cümlədən Kəlbəcər ərazisindədir ki, bu da Ermənistanın öz qanunsuz işğalının nəticələrini möhkəmləndirmək siyasəti yeritdiyini təsdiqləyir. 20 ildən artıq müddət ərzində Ermənistan azərbaycanlı köçkünlərdən heç birinin işğal olunmuş bu ərazilərdə öz evlərinə qayıtmasına imkan verməyib.

Azərbaycanın üç vətəndaşı ilə bağlı hadisə Ermənistan-Azərbaycan münaqişəsi kontekstində əsas insan hüquq və azadlıqlarının, beynəlxalq humanitar hüququn müvafiq müddəalarının necə ciddi şəkildə pozulduğunu bir daha təsdiqləyir.

Azərbaycanın üç vətəndaşı barəsində Ermənistanın hərəkətləri faşist Almaniyasının işğal olunmuş ərazilərdə dinc əhaliyə qarşı yeritdiyi siyasəti xatırladır. İkinci Dünya müharibəsi zamanı faşistlər işğal olunmuş ərazilərdə mülki şəxslərə qarşı hərbi məhkəmələr qururdular. Sırf formal xarakter daşıyan bu məhkəmələr nasist rəhbərlərin qabaqcadan çıxardıqları hökmləri həyata keçirirdi. Lakin İkinci Dünya müharibəsində faşistlər mülki əhalinin işğal olunmuş ərazilərdə yaşamasına imkan verdikləri halda, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində etnik təmizləmə aparıb və vətəndaşların öz evlərinə qayıtmasına yol verməmək üçün qanunsuz məhkəmələr qurur.

Beynəlxalq Fond D.Əsgərov və Ş.Quliyev ilə bağlı hadisələri müşahidə və təhlil edərək belə qənaətə gəlir ki, girov götürülmüş azərbaycanlılarla qeyri-insani və təhqiramiz rəftarın Ermənistan KİV-ləri vasitəsilə açıq nümayiş etdirilməsi, Ermənistanın rəsmi şəxslərinin girov saxlanılanlar adından bəyanatlar yayması və nəhayət, onlara qarşı nümayişkaranə şəkildə təşkil edilmiş "məhkəmə prosesləri" Ermənistanın məqsədyönlü siyasətidir. Bundan başqa, Ermənistan regionda əlavə gərginlik yaranmasına nail olmağa çalışır, Ermənistandakı erməni əhalisi və işğal olunmuş Dağlıq Qarabağda yaşayan erməni icması arasında Azərbaycan xofunu gücləndirir.

Beynəlxalq Fond ATƏT-in Minsk qrupu həmsədrlərinin, münaqişənin nizama salınmasına bu və ya digər dərəcədə cəlb edilmiş, yaxud onun humanitar tərəfləri ilə məşğul olan BMT, Aİ və ya Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) kimi nüfuzlu beynəlxalq subyektlərin azərbaycanlı girovların azad edilməsi üçün heç bir təsirli tədbir görmədiyindən ciddi narahat olduğunu bildirir.

Beynəlxalq Fond xatırladır ki, BMT-nin Təhlükəsizlik Şurası münaqişə ilə bağlı qəbul edilmiş 882-ci (1993), 853-cü (1993), 874-cü (1993) və 884-cü (1993) qətnamələrində ərazilərin əldə edilməsi üçün zor işlədilməsinin yolverilməz olduğunu qeyd edib, Baş Assambleya isə A/RES/62/243-cü qətnaməsində (2008) bildirib ki, dövlətlər Azərbaycan ərazilərinin işğalı nəticəsində yaranmış vəziyyəti qanuni hesab etməməli, bu vəziyyətin saxlanmasına kömək, yaxud yardım göstərməməlidirlər. Həmçinin nəzərdə tutulur ki, ATƏT-in Minsk qrupunun - BMT-nin verdiyi mandat əsasında bilavasitə münaqişənin aradan qaldırılması ilə məşğul olan qurumun həmsədrləri Ermənistanı qanunsuz hərəkətlərdən, o cümlədən insanları girov götürməkdən çəkindirmək üçün xüsusi məsuliyyət daşıyırlar.

Regionda təhlükəsizliyin və sülhün bərqərar olmasına kömək göstərmək kimi xeyirxah niyyətləri olan Beynəlxalq Fond ATƏT-i, BMT-ni, Aİ-ni, Avropa Şurasını və BQXK-nı səlahiyyətlərinə və mandatına uyğun olaraq qanunsuz saxlanılmış D.Əsgərovun və Ş.Quliyevin Ermənistan tərəfindən azad edilməsi üçün təsirli tədbirlər görməyə çağırır".

**AzərTAc-ın**
**materialları əsasında**

# Naxçıvan Hərbi Hospitalına bayram sovqatı aparılıb

***Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü bütövlük və suverenliyin vacib formulu olan xalq-ordu birliyinin də əsasını təşkil edir. Muxtar respublikada bayram günlərində idarə, müəssisə və təşkilatların kollektivləri, ictimaiyyətin nümayəndələri hərbi hissələrdə əsgər və zabitlərlə görüşür, onlara maddi və mənəvi dəstək olurlar. Ənənə halını alan bayram görüşləri Vətənimizin sadiq keşikçilərinin mənəvi-psixoloji hazırlığına müsbət təsir göstərir, əsgərlərin mübarizlik əzmini daha da artırır.***



Dekabrın 31-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Naxçıvan Hərbi Hospitalına gəlib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AzərTAc-a bildirilib ki, Ali Məclisin sədri hərbi qulluqçuların səhhəti, müalicəsi, dərman təchizatı və qidalanması ilə maraqlanıb.

Məlumat verilib ki, muxtar respublikada ordu quruculuğu sahəsində görülən işlər nəticəsində şəxsi heyətin xidmət və məişət şəraiti xeyli yaxşılaşıb. Ələhiddə Ümumqoşun Ordusunun hərbi hissələrində şəxsi heyət mütəmadi olaraq tibbi müayinədən keçirilir, xəstəliklərin qarşısı vaxtında alınır. Həmçinin birləşmə və bölmələrdə yerli şəraitə uyğun rejim qaydalarının tətbiq edilməsi əsgərlər arasında xəstəliklərin azalmasına səbəb olub. Hazırda hərbi hospitalda lazımi dərman vasitələri və tibbi ləvazimatlarla təminat müayinə və müalicənin effektiv təşkilinə imkan verir.

Ali Məclisin sədri hospitalın ayrı-ayrı bölmələrində müalicə olunan hərbi qulluqçuların bayramlarını təbrik edib, onlara tezliklə sağalıb xidmət yerlərinə qayıtmalarını arzulayıb.

Hospitalda müalicə alan əsgərlərə və tibb heyətinə bayram hədiyyələri paylanıb, gətirilən ərzaq məhsulları mətbəxə təhvil verilib.

Sonra Ali Məclisin sədri Hərbi Hospitalın səyyar tibbi yardım və rentgen flüoqrafiya avtomobillərinə baxıb.

Bildirilib ki, müasir rentgen, USM və kardioqrafiya avadanlıqları ilə təmin olunan səyyar flüoqrafiya maşınları yüksək texniki göstəricilərə malikdir. Bu da birləşmə və bölmələrdə şəxsi heyətin vaxtlı-vaxtında tibbi müayinədən keçirilməsinə imkan verəcək.

Ali Məclis sədri Naxçıvan Hərbi Hospitalının həkimləri tərəfindən mütəmadi olaraq Ələhiddə Ümumqoşun Ordusunun birləşmə və bölmələrində müayinələrin aparılması, gigiyenik qaydalara əməl olunması, infeksion xəstəliklərin qarşısının vaxtında alınması və profilaktik tədbirlərin gücləndirilməsi barədə tapşırıqlar verib.

Azərbaycan Prezidenti İlham Əliyev bu il dekabrın 24-də Dünya Azərbaycanlılarına ünvanladığı müraciətində deyib: "Dünyada yaşayan soydaşlarımızın Vətənə və azərbaycançılıq məfkurəsinə sədaqətini, xalqımızın öz keçmişinə və milli mənəvi dəyərlərinə ehtiramını əks etdirən bu bayram tarixi yaddaşımızın mühüm tərkib hissəsinə çevrilmişdir. Ümummilli lider Heydər Əliyevin misilsiz xidmətləri sayəsində milli birlik və həmrəylik ideyaları daha dolğun məzmun kəsb edərək, real fəaliyyət sahəsi kimi dövlət siyasəti səviyyəsinə yüksəlmişdir".

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni İl bayramı hər il Naxçıvan Muxtar Respublikasında da özünəməxsus şəkildə qeyd olunur. Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi həmrəylik və birlik ideyaları real işdə öz əksini tapır, bu günün mahiyyətinə uyğun olaraq xüsusi diqqətə, qayğıya və şəfqətə ehtiyacı olan insanlara baş çəkilir, onlara bayram sovqatları aparılır.

Dekabrın 31-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Psixi Xəstəliklər Dispanserinə gəlib, səhiyyə ocağındakı xəstələri və tibb işçilərini Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni İl bayramı münasibətilə təbrik edib, xəstələrin səhhəti, onların müalicəsi və məişət şəraiti ilə maraqlanıb.

Qeyd olunub ki, muxtar respublikada həyata keçirilən səhiyyə islahatları insanlara göstərilən tibbi xidmətin səviyyəsini xeyli yüksəldib. Bu sahəyə ayrılan diqqətin nəticəsidir ki, Psixi Xəstəliklər Dispanserində də xəstələr üçün nümunəvi müalicə və məişət şəraiti yaradılıb, səhiyyə ocağı lazımi dərman preparatları və tibbi avadanlıqlarla təchiz olunub.

Psixi və Ağciyər Xəstəlikləri dispanserlərində və Onkoloji Mərkəzdə müayinə və müalicə zamanı müasir metodların tətbiqinin vacibliyini vurğulayan Ali Məclis sədri muxtar respublikada bu kateqoriyadan olan xəstələrin bundan sonra da hərtərəfli qayğı ilə əhatə olunacağını bildirib, psixi, ağciyər və onkoloji xəstəliklərin vaxtında aşkara çıxarılması və qarşısının alınması, bu məqsədlə yerlərdə yoxlamaların aparılması və səhiyyə maarifi işinin təşkili barədə tapşırıqlar verib.

Gətirilmiş hədiyyələr Psixi və Ağciyər Xəstəlikləri dispanserlərində və Onkoloji Mərkəzdə müalicə alan xəstələrə, burada çalışan tibb işçilərinə paylanıb, müxtəlif ərzaq məhsulları anbarlara təhvil verilib.

**AzərTAc**

# Hərbi Hava Qüvvələrində Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə tədbir keçirildi



***Müdafiə nazirinin təsdiq etdiyi plana uyğun olaraq hərbi hissələrdə bayram tədbirləri keçirildi. Belə tədbirlər Hərbi Hava Qüvvələrinin tabeliyində olan hərbi hissələrdə də təşkil edildi. Havanın sərt olmasına baxmayaraq, səhər saatlarında polkovnik Elşad Pənahovla "N" hərbi hissəsinə yola düşdük. Söhbətimiz zamanı polkovnik 2014-cü il ərzində Silahlı Qüvvələrdə baş verən dəyişikliklərdən danışdı. O, güclü ordu quruculuğunun müasir Azərbaycanı xarakterizə edən əsas amillərdən olduğunu qeyd etdi.***

Hərbi hissəyə çatanda artıq burada bayram ab-havası hiss olunurdu. Klubda hər kəs öz yerini tutmuşdu. Hərbi Hava Qüvvələrinin və rayon ictimaiyyəti nümayəndələrinin təşkilatçılığı ilə keçirilən bayram şənliyində Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov, Kürdəmir rayonu İcra Hakimiyyəti başçısının müavini Rəsmiyyə Əsgərli və digər ictimaiyyət nümayəndələri iştirak edirdilər.

General-leytenant Ramiz Tahirov çıxış edərək Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbrik məktubunu şəxsi heyətə çatdırdı və bildirdi ki, Silahlı Qüvvələrin bütün qoşun növləri üzrə inkişafı ölkə rəhbərliyinin daim diqqət mərkəzindədir. 2014-cü il ərzində Hərbi Hava Qüvvələrində görülən işlərdən danışan komandan qeyd edib ki, bu tədbirlər əsgər və zabitlərimizin xidmətinin mükəmməl qurulmasına yönəlib. Şəxsi heyət üçün bütün standartlara cavab verən əsgər yataqxanaları, yeməkxanalar, zabitlərimiz üçün yaşayış binaları tikilir. "Baş nazir Artur Rasi-zadə və Müdafiə naziri general-polkovnik Zakir Həsənov "N" hərbi hissəsində olduqları zaman 50 mənzilli yaşayış binasının tikilməsi üçün göstəriş verilib", - deyə general-leytenant Ramiz Tahirov qeyd edib.



Həmçinin o, çıxışında avqust hadisələrindən danışaraq bildirib ki, bütün bunlar Azərbaycan Ordusunun işğalda olan torpaqlarımızı azad etmək qüdrətində olduğunun göstəricisidir.

Kürdəmir rayonu İcra Hakimiyyəti başçısının müavini Rəsmiyyə Əsgərli də öz çıxışında Azərbaycan Ordusunun qüdrətindən, əsgərlərimizin qorxmazlığından danışaraq çox tədbirlərdə iştirak etdiyini, lakin ordu ilə bağlı keçirilən görüşlərdə özünü daha güvəndə hiss etdiyini bildirib. O, çıxışını ümummilli lider Heydər Əliyevin "Sülh danışıqlarını cəsarətlə apara bilmək üçün güclü orduya malik olmaq lazımdır" sözləri ilə başa vurub.

Sonda il ərzində xidmətdə uğurlar qazanmış hərbi qulluqçulara fəxri fərmanlar və növbəti hərbi rütbələr təqdim olunub.

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

# Kaliforniya qəzeti azərbaycanlı diplomatın Ermənistanın işğalçılıq siyasəti barədə məktubunu dərc edib

***Kaliforniyanın Fresno şəhərində nəşr olunan "Fresno Bee" qəzetində Azərbaycanın Los-Ancelesdəki baş konsulu Nəsimi Ağayevin məktubu dərc edilib. Məktub həmin qəzetdə qondarma "Dağlıq Qarabağ Respublikası" haqqında dərc edilmiş məqaləyə cavab olaraq yazılıb.***

Məktubda qeyd edilir ki, qondarma "Dağlıq Qarabağ Respublikası" Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən işğalı və bu ərazilərdə aparılmış etnik təmizləmə nəticəsində yaradılmış qeyri-qanuni rejimdir. Vurğulanır ki, qondarma "Dağlıq Qarabağ Respublikası" ABŞ və ya hər hansı digər dövlət tərəfindən tanınmayıb.

Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisinin beşdə birini işğal etdiyini və 800 mindən çox azərbaycanlının bu torpaqlardan didərgin salındığını yazan baş konsul müqayisə üçün bildirir ki, işğal olunmuş torpaqların ərazisi Fresno vilayətinin ərazisinə bərabərdir. N.Ağayev BMT Təhlükəsizlik Şurasının bu işğalı pislədiyini və erməni qoşunlarının Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb etdiyini vurğulayır.

Rəsmi Bakının Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsini istədiyini bildirən baş konsul, eyni zamanda, sülhün yalnız Ermənistanın öz qoşunlarını Azərbaycan torpaqlarından çıxaracağı, işğala son verəcəyi və didərgin salınmış azərbaycanlıların öz yurdlarına qayıtmaları nəticəsində mümkün ola biləcəyini diqqətə çatdırıb.

Qeyd edək ki, Fresno ABŞ-da erməni icmasının ən çox yaşadığı şəhərlərdən biridir.

**AzərTAc**

*Gənc əsgərlərin hazırlığı*

# Gün gələcək ki...

- Qarşımızda dayanan başlıca vəzifələrdən biri ordu sıralarında ilk addımlarını atan gənc əsgərlərə hərbi bilikləri və döyüş vərdişlərini öyrətməkdən ibarətdir, - deyə zabit Samir Əsgərov bizimlə söhbətində bildirdi. - Üzərimizə düşən bu vəzifələri yüksək peşəkarlıqla yerinə yetirmək üçün xidmətimizə məsuliyyətlə yanaşırıq. Bir müddət əvvəl gənc əsgərlərimiz təntənəli surətdə Vətənə sədaqət andı içdilər. Bir zabit kimi əminəm ki, xidmətə yeni başlayan oğullar içdikləri hərbi anda həmişə sadiq qalacaqlar. Gənc əsgərlərə hərbi vərdişləri aşılamaq üçün səmərəli dərs və məşğələlər keçirik. Məşğələlərdə fəal iştirak edən əsgərlər isə qısa müddət ərzində ordu mühitinin sirlərinə yiyələnməyə çalışırlar.



Qısa söhbətdən sonra sıra hazırlığı məşğələsi keçən şəxsi heyətə yaxınlaşırıq. Bizi burada qarşılayan baş leytenant Adil Məmmədov bildirdi ki, gənc əsgərlər başqa dərs və məşğələlərdə olduğu kimi, sıra hazırlığı məşğələsində də həvəslə iştirak edərək hərbi vərdişləri mənimsəyirlər. Fərəhli haldır ki, əsgərlərin hazırlığı gündən-günə artır. Bir neçə gün əvvəl onlar sırada düzgün addımlaya bilmirdilər. İndi isə əsgərlərin inamlı və nizamlı addımları nəzərimizdən yayınmır. Deməli, məşğələlər, dərslər öz müsbət nəticəsini verir. Əsgərlərimiz gündən-günə daha təcrübəli və səriştəli olurlar. Artıq şəxsi heyət hərbi xidmətin əlifbası olan sıra hazırlığını mükəmməl mənimsəyib. Onlar sırada addımlayarkən heç bir səhvə yol vermirlər. Bu isə uğurlu başlanğıcdan xəbər verir.

Sırada addımlayan şəxsi heyətin bəzi üzvləri ilə tanış oldum. Əsgərlərdən Paşa Yusifov, Sərvan Şəldiyev, Dəryanur Hüseynov, Şamil Tunayev, Nurlan Varşabov, Camal Qurbanəliyev, Bəxtiyar Abdullayev, Elşən Qaçayev, Elnur Mustafayev və başqaları ordu sıralarında həyatlarının ən mənalı çağlarını yaşadıqlarını bildirdilər. Hiss olunurdu ki, hər biri Vətənə əsgər olmağından qürur duyur.

Söhbətimiz başa çatdıqdan sonra şəxsi heyətin sıra hazırlığı məşğələsi davam etdi. Baş leytenant Adil Məmmədov onlara müxtəlif əmr və tapşırıqlar verdikcə əsgərlər geniş meydanda inamla addımlayaraq hazırlıqlarını nümayiş etdirirdilər. Addımlardan qopan ritmik səslər ətrafa yayıldıqca qəlbim qürurla döyünürdü. Gün gələcək ki, bu cəsur əsgərlərin addım səsləri erməni qəsbbkarlarının işğalından azad olunacaq torpaqlarımızda da eşidiləcək.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu",**
**foto müəllifindir**

# Xəbərlər: hadisələr, faktlar

## Avstriyada nüvə silahının hazırlandığı nasist bunkeri aşkarlanıb



Avstriyanın şimalında, Sankt-Georgen-an-der-Quzen şəhərciyi yaxınlığında İkinci Dünya müharibəsi zamanı nasistlərin nüvə silahı hazırlamaq istiqamətində işlər apardığı bunker və yeraltı tunellər şəbəkəsi aşkarlanıb. AzərTAc xəbər verir ki, yeraltı kompleksi kinorejissor Andreas Zultser 1944-cü ilə aid sənəd əlinə keçəndən sonra aşkarlayıb. Həbs edilmiş fiziklərin, kimyaçıların və mühəndislərin bu müəssisədə dəhşətli layihələr üzərində işləməyə vadar edildiyini deyən Andreas Zultser onların xatirəsi naminə burada baş verənləri insanlara çatdırmağın vacib olduğunu bildirib. Tarixçilər obyektin tikintisi zamanı təxminən 320 min məhbusun həlak olduğunu bildirirlər.

## Qarsda Sarıqamış şəhidlərinin xatirəsi anılıb




Türkiyənin Qars vilayətində Sarıqamış şəhidlərinin xatirəsi anılıb.

AzərTAc xəbər verir ki, Qafqaz Universitetinin nəzdində fəaliyyət göstərən Sarıqamış Kollecində keçirilən mərasimdə hökumət təmsilçiləri, Türkiyə Böyük Millət Məclisinin üzvləri, ölkə ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Mərasimdə XX əsrin əvvəllərindən başlayaraq Osmanlı dövlətinə qarşı həyata keçirilən hərbi müdaxilələrin acı nəticələrindən bəhs olunub. Qeyd olunub ki, Vətənin müdafiəsi, ölkənin bütövlüyü uğrunda şəhid olanların əziz xatirəsi həmişə uca tutulacaq.

## 2015-ci ildə Ebola ilə mübarizəyə 4 milyard dollar lazım gələcək



Gələn il Qərbi Afrikanı bürümüş Ebola virusuna qarşı mübarizəyə 3-4 milyard dollar vəsait lazım gələcək. Bu barədə Dünya Bankının ekspertlərinin hazırladığı məruzədə qeyd olunur. AzərTAc xəbər verir ki, epidemiya yayıldığı Afrika ölkələrinin iqtisadiyyatına mənfi təsir göstərdiyindən onların bu vəsaiti beynəlxalq yardım olmadan əldə edə biləcəyi inandırıcı görünmür. Mütəxəssislərin fikrincə, gələn il Serra-Leonenin ümumi daxili məhsulunda 2 faizlik geriləmə gözlənilir. Dünya Səhiyyə Təşkilatının son məlumatlarına görə, ölümcül Ebola virusunun səbəb olduğu xəstəlikdən ölənlərin sayı təxminən 7,7 min nəfərə çatıb, eyni zamanda, yoluxanların sayı da artaraq 20 min nəfərə yaxınlaşıb.

## Ötən il İraq üçün son beş ildə ən qanlı il olub



Ötən il İraq ərazisində 12 mindən çox adam qətlə yetirilib. AzərTAc İraqa yardım göstərilməsi üzrə BMT missiyasına istinadla xəbər verir ki, bu, son beş ildə qeydə alınan ən çoxsaylı insan tələfatıdır. Missiyanın məruzəsində deyilir ki, bu müddət ərzində İraqda 12 min 283 adam zorakılığın qurbanı olub, 23 mindən çox adam yaralanıb.

BMT missiyasının başçısı Nikolay Mladenov bildirib ki, İraqın dinc sakinləri 2014-cü ildə də zorakılıq və terrorizmdən əziyyət çəkiblər. Qurbanların sayı İraq və Şam İslam Dövləti adlandırılan terrorçu qruplaşmanın və onunla əlaqədar hərəkatların bu ölkədə törətdikləri zorakılıq hallarının çoxalması səbəbindən artıb.

## Rusiya əhalisi 2014-cü ildə 30 milyard dollarlıq xarici valyuta alıb




Rusiya əhalisi 2014-cü ildə 30 milyard dollarlıq xarici valyuta alıb. Bu barədə Rusiyanın iqtisadi inkişaf naziri Aleksey Ulyukayev "Business FM" radiosuna müsahibəsində məlumat verib. AzərTAc xəbər verir ki, 30 milyard dollarlıq xarici valyutanın ümumi kapital axınının təxminən 25 faizini təşkil etdiyini deyən Aleksey Ulyukayev, 2014-cü ilin yekunlarına görə, kapital axınının ümumilikdə 120-130 milyard dollar arasında olduğunu qeyd edib.

Nazir, həmçinin Rusiyanın "Standard&Poor's" agentliyinin investisiya reytinqində geriləməsinin ölkəsinə daha 20-30 milyard dollar ziyan vuracağı fikrindədir.

## "AirAsia" şirkətinə məxsus təyyarənin axtarışları davam edir



2014-cü il dekabrın 28-də İndoneziyadan Sinqapura uçan "AirAsia" şirkətinə məxsus təyyarə havaya qalxdıqdan 42 dəqiqə sonra radarların ekranından itib.

Kalimantan adası yaxınlığında qəzaya uğramış təyyarənin göyərtəsində 155 sərnişin və 7 heyət üzvü olub.

İndoneziyanın Milli Axtarış və Xilasetmə Agentliyinin rəhbəri Bambanq Soelisti bildirib ki, təyyarənin dənizin dibində aşkar edilmiş parçaları onun gövdəsinin dağıldığını təsdiqləyir.

Son məlumata əsasən, xilasedicilər qəzaya uğramış təyyarənin artıq 31 sərnişin və heyət üzvünün cəsədlərini dənizdən çıxarıblar. Hazırda axtarış əməliyyatlarında 27 gəmi və 10-dan artıq təyyarə iştirak edir.

## Tokio hərraclarında mavi tuna balığı 37,5 min dollara satılıb



Yeni ildə Tokionun məşhur Tsukuzi balıq bazarında Sakit okean sahillərində tutulmuş 180 kilo ağırlığında tuna balığı 4,5 milyon yenə (təqribən 37,5 min dollar) satılıb. Ötən il olduğu kimi, bu il də nəhəng balığı Tokionun "Kiyomura" suşi restoranları şəbəkəsinin sahibi Kiyoşi Kimura alıb.

Tsukuzidə ilin ilk balıq hərraclarında ən böyük mavi tuna balığına sahib olmaq Tokio restoranlar elitasının ən maraqlı əyləncələrindən biridir. Hərracların gərgin keçdiyi anlarda iştirakçılar hətta külli miqdarda pul sərf etməkdən belə çəkinmirlər. Belə ki, 2012-ci ilin ilk hərracları zamanı 222 kiloluq mavi tuna balığı 155,4 milyon yenə (həmin vaxtın məzənnəsi ilə 1,49 milyon dollara) satılmışdı.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

AZƏRBAYCAN ORDUSU

*Əlağa Şıxlinski - 150*

# Generalın yubileyinə həsr olunmuş tədbir



***Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "General Əlağa Şıxlinskinin 150 illik yubileyinin keçirilməsi haqqında" 20 noyabr 2014-cü il tarixdə imzaladığı sərəncama əsasən, ölkəmizdə genişmiqyaslı silsilə tədbirlər nəzərdə tutulub.***

Bu günlərdə Azərbaycan Dillər Universitetində "General Əlağa Şıxlinski və Çin" mövzusunda elmi-tarixi seminar keçirilib. Universitetin Çin dili və mədəniyyəti mərkəzinin təşkilatçılığı ilə keçirilən tədbir Azərbaycanın hərb tarixinin görkəmli sərkərdələrindən biri general Əlağa Şıxlinskinin hərbi xidmətinin Çin mərhələsinə həsr olunub. Tədbirdə giriş sözü ilə çıxış edən Çin dili və Mədəniyyəti Mərkəzinin direktoru dosent Rafiq Abbasov bildirib ki, ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə təsis edilmiş Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində bu seminarın keçirilməsi dövlətin milli maraqlarının qorunması naminə dünya azərbaycanlılarını birləşdirməyə, gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsinə xidmət edir.

Seminarda ADU-nun çinşünaslıq ixtisası üzrə təhsil alan tələbə və müəllimləri çıxış edərək XX əsrin Çin hərb tarixinin ən mühüm hadisələrindən, general Ə.Şıxlinskinin həyatının müxtəlif dövrlərindən, onun artilleriya elminin nəzəri və təcrübi bazasına verdiyi əvəzsiz töhfələrindən geniş söhbət açıblar.

Universitetin I kurs tələbəsi Aytac İmranzadə çıxışına xalq şairi Səməd Vurğunun general Ə.Şıxlinski barədə söylədiyi fikirləriylə başlayıb: "Azərbaycanlılar birinci dəfə deyil ki, vuruş meydanlarında yaponlarla qarşı-qarşıya gəlirlər. Mən Port-Artur uğrunda gedən döyüşlərdə fərqlənmiş məşhur topçu Əlağa Şıxlinskinin adını çəkə bilərəm. Bu ad rus hərb elmi tarixində şöhrət qazanmışdır".

Çıxışına davam edən A.İmranzadə bildirib ki, generalın 1904-1905-ci illərdəki hərbi rəşadəti bütün Rusiyaya yayılmışdı. Qəhrəmanlığı 6 ordenə layiq görülən, rütbəsi kapitandan podpolkovnikə yüksələn Şıxlinski haqlı olaraq "Xatirələrim"də yazır ki, Port-Artur epopeyasının iştirakçısı olduğumu həmişə iftixarla yad edirəm.

1905-ci il aprelin 1-də "Tərcüman" qəzetinin "Müxtəlif xəbərlər" rubrikasında oxuyuruq: "4-cü Şərqi Sibir atıcı artilleriya briqadasının kapitanı Əlağa Şıxlinski oktyabrın 7-dən noyabrın 19-dək Port-Arturda yaponların basqınını dəf etməkdə fərqləndiyi üçün ali ehtiramla "İgidliyə görə" medalı və üstü yazılı Qızıl qılıncla təltif olunub".

General Ə.Şıxlinskinin Port-Arturdakı nümunəvi döyüş xidmətləri 4-cü dərəcəli "Müqəddəs Anna" ordeninə əlavə olaraq qızıl qılınc nişanı, qılınc və bantlı "Müqəddəs Vladimir" ordeni, məşhur "Müqəddəs Georgi" ordeninin 4-cü dərəcəsinə layiq görülmüşdü.

Bu gün Milli Azərbaycan Tarixi Muzeyində generalın şəxsi əşyaları içərisində 1908-ci il martın 5-də imperator tərəfindən təsdiq olunmuş "Port-Artur qalasının müdafiəsi" döş nişanı qorunub saxlanılır.



Universitetin Çin dili kafedrasının uyğur əsilli müəllimi Aygül İmanhacı qızının general Ə.Şıxlinskinin Port-Artur döyüşləri barədə çıxışı (çin dilində) tədbir iştirakçılarında böyük maraq doğurdu.

Seminarda Şıxlinskilər ailəsinin nümayəndəsi tanınmış kinorejissor, əməkdar incəsənət xadimi Ziya Şıxlinski və generalın yaxın dostu, görkəmli filosof alim, akademik Heydər Hüseynovun qızı Leyla Hüseynova xatirələrindən danışıblar.

Sonra tədbir iştirakçıları ehtiyatda olan polkovnik Məhərrəm Cahangirovun və akademik Teymur Bünyadovun "General Əlağa Şıxlinski və Çin" mövzusunda maraqlı çıxışlarını dinləyiblər.

Elmi-tarixi seminar tələbələrin ifasında görkəmli hərbi xadim Ə.Şıxlinskinin "Xatirələrim" kitabından çıxarışların səsləndirilməsi, generalın həyatından və döyüşdə göstərdiyi şücaətindən bəhs edən "Artilleriyanın Allahı hesab edilirdi" adlı sənədli filmin nümayişiylə yekunlaşıb.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ** (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri** (17 fevral 1990) - 19 kv.km.*
***Laçın** (17 may 1992-ci il) - 1835 kv.km.*
***Kəlbəcər** (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*
***Ağdam** (23 iyul 1993-cü il) - 1094 kv.km.*
***Cəbrayıl** (18 avqust 1993-cü il) - 1059 kv.km.*
***Füzuli** (23 avqust 1993-cü il) - 1386 kv.km.*
***Qubadlı** (31 avqust 1993-cü il) - 802 kv.km.*
***Zəngilan** (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# İdman

## Zabit Səmədov məşhur yapon kikboksçusunu məğlub etdi



Dekabrın 29-da Azərbaycanın K-1 döyüşçüsü Zabit Səmədov Tokioda yaponiyalı Makoto Uehara ilə "Blade FC Japan Cup 2014" turnirində üz-üzə gəlib. M.Uehara qara kəmər sahibi, ağır çəkidə Yaponiyada bir çox yarışlarda qalib gəlib. Qeyd edək ki, idmançımız ən parlaq döyüşlərindən birini 2013-cü ilin mayında "Leqenda" turnirində əfsanəvi mərakeşli kikboksçu Badr Hariyə qarşı keçirib və inamlı qələbə qazanıb. Yapon idmançı ilə döyüş Z.Səmədovun tam üstünlüyü ilə keçsə də, ilk 3 raunddan sonra hakimlər yerli idmançıya dəstək olaraq, ümumi hesabın bərabər olduğunu bildiriblər. Lakin Z.Səmədov əlavə 4-cü raund zamanı qələbəyə nail olub. Bununla da Azərbaycan idmançısı 2014-cü ili zəfərlə başa vurub.

## İdmançımız dünya çempionu oldu



Ukraynanın Xarkov şəhərinin ev sahibliyi etdiyi "MMA" və uşu-sanda üzrə böyüklər arasında dünya çempionatına yekun vurulub. ANS PRESS-in məlumatına görə, 29 ölkədən 350 idmançının qatıldığı yarışda millimiz 4 idmançı ilə təmsil edilib.

Yığmamızın ən yüksək nəticəsini iki növ üzrə Azər Baxışov göstərib. İdmançımız "MMA" üzrə 50 kq-da I yer, uşu-sanda üzrə isə 52 kq-da II yerə layiq görülüb. Xaçmazlı idmançı yarışda daha bir nominasiya üzrə qalib olub. Azər Baxışov dünya çempionatının ən cəld idmançısı seçilib.

## Millimiz növbəti mərhələdə



Sankt-Peterburq şəhərində Valentin Qranatkinin xatirəsinə həsr olunmuş ənənəvi beynəlxalq turnirdə 1997-1998-ci il təvəllüdlü futbolçuların yarışında millimiz ikinci görüşünə çıxıb.

İlk görüşdə Yaponiyanı 1:0 hesabı ilə məğlub edən Nikolay Adamın yetirmələri bu dəfə Rusiya-2 komandası ilə qarşılaşıb.

Hesabda geri düşən millimiz Rusiya-2-ni 4 dəfə mərkəzdən başlamağa məcbur edib. Oyunun sonlarında isə meydan sahibləri hesab arasındakı fərqi azaldıb - 4:2.

Komandamız xalını 6-ya çıxarıb və qrup lideri kimi adını növbəti mərhələyə yazdırıb.

## Əlbəyaxa döyüş üzrə Murmansk birinciliyində həmyerlimiz uğurla çıxış edib



Rusiyanın Murmansk şəhərində əlbəyaxa döyüş üzrə vilayət birinciliyi keçirilib. Yarışlarda təxminən 150 idmançı iştirak edib. Vilayət birinciliyində Apatiti idmançıları qalib gələrək 1 qızıl, 1 gümüş və 7 bürünc medal qazanıblar.

Ümumrusiya Azərbaycanlılar Konqresinin (ÜAK) Murmansk vilayət bölməsinin və Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin (RAGB) yerli nümayəndəliyinin mətbuat katibi Əlihüseyn Şükürovun AzərTAc-a verdiyi məlumata görə, əlbəyaxa döyüşdə Murmanskda yaşayan həmvətənimiz İsrafil Abıyev bütün rəqiblərindən üstün olub.

## Emil Balayev mini turnirdə debüt etdi



Millimizin qapıçısı Emil Balayev yeni klubu "Ayntraxt"da debüt edib. Apasport.az saytının məlumatına görə, Almaniya klubu yaranan fasilədən istifadə edərək, 13-cü Harder kuboku mübarizə aparıb. Təmsilçimizin komandası mini turnirdə "Karlsrue"ni 2:1, Valdhof"u 3:0 və "Kayzerslautern"i 5:4 hesabı ilə məğlub edib. "Ayntraxt" sonda "Sandhauzen"ə uduzub - 1:2.

Qeyd edək ki, 5 komandalı, dairəvi sistemli turnirdə ən çox xal toplayan iki komanda sonda həlledici matçda üz-üzə gələcək.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

Gizir Nəzərov Ramiz İsmət oğluna 2014-cü ildə verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq xidmət edən hərbi qulluqçu əsgər Babayev Tural Bayram oğluna 2012-ci ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

*Tarix*

# Ermənilərin "Karvacar (Kəlbəcər) Bəyannaməsi" və Azərbaycana yeni ərazi iddiaları

***Ermənistanın müstəqilliyini qeyd etmək üçün 2013-cü ildə Ermənistan QHT-lərinin bir qrup təmsilçisi bir bəyannamə yayımlayıb: "Karvacar Deklarasiyası". Bu bəyannamədə Azərbaycanın, əsasən, Dağlıq Qarabağ ətrafında olan torpaqların qanla alındığı və qətiyyən verilməyəcəyi fikirləri qeyd edilib. Bu toplantıya vaxtilə Qarabağda terrorçuluq fəaliyyəti göstərən adamlar da qatılmışlar. Hər vəchlə "azad olunmuş" torpaqlar geri verilməyəcək. Əgər belə bir qərarı Ermənistan qəbul etsə, Qarabağ savaşına qatılmış insanlar bununla razılaşmayacaq.***

Bəyannamədə əlavə olaraq Naxçıvanın da "geri alınması" fikri bildirilib.

Yeni ərazi iddiaları Ermənistan cəmiyyətində həmişə gündəmdədir. Ermənilərin məskunlaşma anlayışına baxışı siyasi xarakter daşıyır. İşğal etdikləri əraziləri əllərində saxlamaq üçün bu üsuldan istifadə etməyə çalışırlar.

Tarixi Azərbaycan torpağı olan Dağlıq Qarabağı ermənilər 1988-ci ildən "Artsax" adlandırmağa başlayıb. "Artsax" sözünün etimologiyası türklərin daha qədim zamanlardan burada məskunlaşdığını aydınlaşdıran bir tarixi faktdır. "Artsax" Azərbaycanın vaxtilə Albaniya adlanan dövlətinin eramızdan əvvəl bir hissəsi olub və mərhum ermənişünas alim, professor Mirəli Seyidov hələ ötən əsrin 70-80-ci illərində yazdığı əsərlərində "Artsax" toponiminin türklərə məxsusluğunu sübut etmişdi. Bunu erməni alimləri də qəbul edirdi. M.Seyidov "Qarabağ Arsaq toponiminin etimologiyası haqqında qeydlər" məqaləsində göstərmişdi ki, arsaq (arşak) türkcə "sak kişisi", başqa anlamda igid, qəhrəman deməkdir. Arsak (Ərsək) sözündən saysız-hesabsız yer-yurd adları yaranıb (Ərtoğrul, Ərdəhan, Əraz, Ərak, Ərəş). Artsax sözünün birinci hissəsinin "ar" (ər) türk tərkibi heç bir tədqiqatçıda şübhə doğurmadığından onun məxsusluğundan da qeyri-müəyyən formada danışmaq mümkün deyil. Professor M.Seyidov yazırdı ki, "... Bu ad Qarabağ və onunla eyni vaxtda, ola bilsin qabaqlar da işlənən Arsaq (Artsax) adıdır. Necə olmuş ki, Qarabağın iki adı yaranmışdır? Bizcə, Arsaq daha əskidir. Həmin qəbilə Azərbaycan xalqının soykökündə duran başqa qəbilələrlə qaynayıb - qarışdıqca qəbiləbirləşməsi müstəqilliyini itirmiş və yer, ərazi adı kimi arxa plana çəkilmiş, "Qarabağ" sözü ön plana çıxmışdır. Arsaq ( Artsax) və Varsaq (Vartsax) qəbilə adının izahı Azərbaycan tarixi ilə bağlı bir sıra qaranlıq, az öyrənilmiş məsələlərin işıqlandırılmasına, soykökün qaynaqlarının aydınlaşmasına imkan verir. Arsaq yer adını aydınlaşdırmazdan əvvəl qısa da olsa, Qarabağ adı haqqında fikrimizi söyləyək. "Qara" və "bağ" tərkiblərindən yaranmış "Qarabağ"ın birinci hissəsinin "rəng", "pis", "qayğılı", "bədbəxt", "şimal", eləcə də başçı, böyük, güclü anlamı vardır. Azərbaycanın bir sıra yerlərində böyük qardaşa da qara deyirlər. "Qarabağ" adının ikinci tərkibi "bağ"ın "bağ (ip)", "düyün", "bağ (bağ - bağat)", "soybirləşməsi silsiləsi", "xalqın bir hissəsi" və başqa anlamları daha çox yayılmışdır. Deməli, Qarabağ - güclü, böyük soybirləşməsinin, xalqın başçısı, bölgüsü deməkdir. Müxtəlif ölkələr gəlmə xalqların bu cür iddiaları ilə dəfələrlə rastlaşmışlar. Bu tarix üçün yeni bir hadisə deyildir. Ermənilər də Cənubi Qafqazda, o cümlədən Azərbaycanda yaşamamış, bu ərazilərə sonradan və tədricən başqa ölkələrdən gəlmiş və yaxud gətirilmişlər. Qarabağda həmişə Azərbaycan tayfaları yaşamış və bu ərazi Azərbaycan dövlətlərinin tərkibində olmuşdur. Qarabağ hər dövrdə bütöv ərazi vahidi olmuşdur. "Dağlıq Qarabağ" ifadəsi isə XX yüzillikdə Sovet Rusiyasının rəhbərliyi tərəfindən uydurulmuşdur. Qarabağ əraziləri qədim dövrdə "Arsax" adı ilə tanıdılıb.

Araşdırmalar aydınlaşdırır ki, doğrudan da, bu torpaqlarda vaxtilə Orta Asiyadan Qafqaza qədər səs salmış böyük, güclü bir qəbilə birləşməsi - Arsaqlar yaşamışlar". "Qarabağ" sözünün isə iki sözün birləşməsi olduğu bəllidir. Bu ifadə yer adı kimi VII əsrdən işlənməyə başlamışdır. Qarabağ Qafqaz Albaniyasından sonra Ərəb xilafətinin əsarətini yaşamış IX-X əsrlərdə Sacilər dövlətinin, X əsrdə Salarilərin, XI-XII əsrlərdə Şəddadilərin, XII-XIII əsrlərdə Atabəy Eldəgizlərin, XIII-XVI əsrlərdə Hülakulərin, XV-XVI əsrlərdə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tərkibində olmuşdur. Azərbaycan xanlıqlara parçalanarkən Qarabağ bəylərbəyliyi ərazisində Qarabağ xanlığı və Gəncə xanlığı yaranmışdı.

17 mahala bölünmüş Qarabağ xanlığının ərazisi Şərqdən Kür-Araz çayları qovşağı, cənubdan Araz çayı, qərbdən Qarabağ dağları adlanan Köşbek, Salvartı, Ərikli dağları ilə Göyçə gölünə qədər uzanmış, şimaldan Kür çayı ilə sərhəddi vardı.

**Qafar ÇAXMAQLI,**
**siyasi elmlər üzrə fəlsəfə doktoru**

***Bilik, savad sistemli təhsillə dərinləşir, inkişaf edir, dünyaduyumu arzulanan səviyyəyə mütaliə ilə çatır. Bu anlamda gənclərin şəxsiyyət kimi formalaşmasında təhsilin, elmi təfəkkürün, ciddi mütaliənin rolu danılmazdır. Milli dəyərlərin daşıyıcısı olmayanın təfəkkürü də, dünyaduyumu da dayanıqsız olur.***

# Hər kəs öz xalqının tarixini dərindən öyrənməlidir

## "Hərbi xidmət dövründə test" müsabiqəsi başa çatıb



Müdafiə naziri general-polkovnik Zakir Həsənovun "Ən müasir silahı da idarə edən əsgərdir" fikrinə istinad etməklə xatırlatmaq istəyirəm ki, əsgər də tariximizə, ədəbiyyatımıza, mədəniyyətimizə bələd olmalıdır. Orta təhsildən sonra bunu gerçəkləşdirməyin müxtəlif forma və metodları var. Onlardan biri "Azərbaycan Ordusu" qəzetinin təşəbbüsü ilə yaşam qazandı. Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqları Komitəsi ilə birgə Silahlı Qüvvələrimizin əsgərləri arasında "Hərbi xidmət dövründə test" müsabiqəsi keçirildi. Bu müsabiqə əsgərlərin mənəvi hazırlığına istiqamətləndirilən təşəbbüs kimi də dəyərlidir. Xalqının tarixini, ədəbiyyatını, mədəniyyətini bilməyən şəxs yaxşı vətəndaş ola bilməz. Deməli, yaxşı vətəndaş olmaq əsgərin həm də mənəvi borcudur...

Müsabiqənin şərtlərinə görə, ən çox düzgün cavab vermiş əsgərlər müəyyənləşdirildi, ilk üç yeri tutan əsgərə Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqları Komitəsinin fəxri fərmanı və pul mükafatı təqdim olundu...

### Beyləqan

Qaliblərin baxışlarında titrəyən narahatlıq adi narahatlıq deyil. Bu şirin narahatlıq zəkanın, təxəyyülün, hafizənin sintezi olan bilgilərə görə mükafat veriləcəyi anın həsrətidi. Silahlı Qüvvələrimizdə ilk dəfə təşkil edilən müsabiqədə iştirak etmək, sonunu gözləmək asan deyil.

Qalib əsgərlərin həyəcanı təkcə mükafatla bağlı deyil. Onlar bu mükafatı ali rütbəli komandirinin, general-mayor Xaqani Cəbrayılovun iştirakı ilə alacaq, onun ata səmimiyyətiylə, ata sevgisiylə təbrikini eşidəcəkdi. Təbii ki, onlar hərbi xidmətinin sonrakı aylarını bu sevginin işığında davam etdirəcək, mülki həyatda da illərlə bu xoş anı xatırlayacaqlar...

Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqları Komitəsinin sədri Abiyət Ağadadaşova I yerə layiq görülmüş əsgər Əjdər Əjdərliyə, II yerə layiq görülmüş əsgər Cavid Kərimliyə Komitənin fəxri fərmanını və pul mükafatını təqdim edir. Komitənin sədri deyir ki, belə müsabiqələr istər zamanında əldə edilən bilikləri, istərsə də mütaliə ilə qazanılanları üzə çıxardır, ən yaxşılar fərqlənir, qalib olur. Müsabiqənin qalibləri həm özünə, həm də xidmət etdiyi hərbi hissəyə şöhrət gətirir.

Əjdər Əjdərli topçudur. Bir azdan öyrənəcəkdik ki, nümunəvi əsgərdir, hərbi bilikləri həvəslə öyrənir. Buna həm də güclü məntiqi təfəkkürü ilə nail olur.

O, Yevlax şəhərində anadan olub. 2009-cu ildə Mingəçevir Türk liseyini bitirib. Türkiyədə Sakarya universitetinə daxil olub. Xüsusi istedadı ilə fərqlənib. Universitetin göndərişi ilə təhsilini İtaliyada, Boloniya Universitetində davam etdirib. 2013-cü ildə "Biznesin idarə edilməsi" ixtisası üzrə ali təhsil alıb. Öyrənirəm ki, İtaliyada təhsil aldığı illərdə Azərbaycanla bağlı bilgilərini tələbə yoldaşlarına da çatdırırmış.

- Ümummilli liderimiz Heydər Əliyevin "Mən həmişə fəxr etmişəm, indi də fəxr edirəm ki, mən azərbaycanlıyam" kəlamı mənim də həyat amalım olub. Mən də həmişə azərbaycanlı olmağımla qürur duymuşam. İtaliyada xalqımızın tarixi, ədəbiyyatı, mədəniyyəti haqqında maraqlananlara məlumat vermək mənim mənəvi borcum idi, - deyir Əjdər.

Müsabiqədə II yerə layiq görülən Cavad Kərimli isə atıcıdır. Bakı şəhərində anadan olub. Orta məktəbi bitirdikdən sonra "Təfəkkür" Universitetinə daxil olub. Mühəndis ixtisası alıb.

General-mayor Xaqani Cəbrayılov belə əsgərlərlə qürur duyduğunu bildirir, qalib əsgərləri təbrik edir, onlara hərbi xidmətdə uğurlar arzulayır...

### Şəmkir

Şəmkirdə Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş təntənəli bayram tədbiri keçirilirdi. Müsabiqənin üçüncü qalibi Sərxan Qasımovun mükafatlandırılması bu tədbirə təsadüf eləmişdi. Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqları Komitəsinin sədri Abiyət Ağadadaşova bu təsadüfdən məmnun olduğunu bildirdi, toplaşanları bayram münasibətilə təbrik etdi. Müsabiqədə qalib gələn əsgərə Komitənin fəxri fərmanını və pul mükafatını təqdim etdi. Sərxanın qədərsiz həyəcanını sezmək çətin deyildi.

Sərxan Qasımlı Bakı şəhərində anadan olub. Azərbaycan İncəsənət Universitetinin məzunudur. Söhbət əsnasında bildirdi ki, uşaqlığından mütaliəyə həvəsli olub, xalqımızın tarixini, ədəbiyyatını, mədəniyyətini böyük həvəslə öyrənib. Bundan sonra da öyrənəcək...

**Rəşid FAXRALI,**
**"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş №1
Nüsxə 4300